**Baytarlıq**

# İNƏK VƏ CAMIŞLARIN ƏMCƏKLƏRİNİN DEZİNFEKSİYASI

***Əşrəf Məmmədli,*** *Az.ETBİ-nin ekologiya, sanitariya və yoluxmayan xəstəliklər laboratoriyasının müdiri , baytarlıq elmləri namizədi*

Heyvanların yelin xəstəlikləri-mastitlər çox geniş yayılmış və heyvandarliq təsərufatlarına böyük iqtisadi zərər verir. Odur ki, onlara qarşı elmi əsaslara söykənən kompleks mübarizə tədbirlərinin işlənib hazırlanması və tətbiq edilməsi heyvandarlığın əsas problemlərindən biridir. Mastitlərə qarşı ilk növbədə profilaktika tədbirləri elə əhatəli və çox şaxəli olmalıdır ki, bilavasitə südün kəmiyyət və keyfiyyətinə mənfi təsir edən bu xəstəliyin mastitlərin heyvanlar arasında yayılmasına şərait yaranmasın. Bu qəbildən olan tədbirlər həddən artıq çoxdur. Onlardan biri də yelinin əmcəklərinin dezinfeksiyaedici maddələrlə sanitar işlənməsidir. Əmcəklərin dezinfeksiyası heyvandarlığın inkişaf etdiyi bir çox ölkələrdə çox geniş istifadə edilir.

Qeyd olunan üsulun tətbiqi nəticəsində əmcəklərin mikroorqanizmlərlə çirklənməsi azalır, əmcək kanalından yelinin parenximasına mikrobların daxil olması çətinləşir, quruluq və çatlar əmələ gəlmir.

İngilis alimlərindən V.V.Philpot əmcəklərin dezinfeksiyası məqsədilə 50-dən çox bakteriosid kimyəvi preparatlar sınaqdan çıxarmışdır. Həmin preparatların tərkibinə əsasən müxtəlif konsentrasiyalarda yodaform, hipoxlorit natrium və yod birləşmələri daxil edilmişdir. Bu preparatların bəzilərinin tərkibinə əmcəklərin dərisini qiciqlanmaya qarşı və yumşaldıcı maddələrdən lanonin, qliserin,sorbital və s. əlavə olunmişdur. Göstərilən preparatların əksəriyyəti qızılı stafilokoklara və aqalaktiya streptokokklarına öldürücü bakteriosid təsir etmişdir. Təxminən mikroorqanizmlərin 50-98,5% məhv olmasına səbəb olmuşdur.

Əmcəklərin səthində olan mikroblara dezinfeksiyaedici preparatların təsir mexanizmini belə izah emək olar. Belə ki, dezinfeksiyaedici məhlul əmcəklərin dəri səthini nazik pərdə (plyonka) ilə örtür və əmcəklərin qurtacaqlarında damcı əmələ

gətirir ki, o da süd çıxarıcı kanalın dəliyini bağlayır. Nəticədə kanaldan mikrobların yelinə daxil olmasının qarşısını alır və mikroorqanizmlərin inkişafına maneçilik törədir. Beləliklə, ümumilikdə əmcəklərdə mikrobların inkişaf edib çoxalması parenximiya daxil olması üçün şərait olmur, mastitlərin əmələ gəlməsinə imkan yaranmır.

S.D.Vilson əmcəklərin dezinfeksiyası üçün tərkibində 4% fəal xlor və 0,05% qələvi olan natrium hipoxlorid məhlulu işlətmiş və əmcəklərin səthində olan mikrofloranın məhv olmasını təmin etmişdir. Təcrübələr göstərmişdir ki, növbəti sağıma kimi əmcəklərdə mikroorqanizmlər edə bilmirlər təxminən bu müddət 5,5-6,5 saat davam edir.

Finlandiya tədqiqatçısı, doktor Q.S.Xeyma göstərir ki, tərkibində yod birləşmələri və əmcəklərin dərisini yumşaldan maddələr olan preparatlar əmcəklərdə mikroorqanizmlərin miqdarını 95%-ə kimi azaldırlar.

Yumşaldıcı maddələrdən ən əlverişlisi qliserindir. Təcrübələr göstərmişdir ki, qliserin preparatlarda olan bakterisid maddələrin təsirini azaltmır, əksinə onların təsirini daha uzun müddətli edir. Odur ki, heyvanlar sağıldıqdan sonra dərhal (sağım aparatları çıxarıldıqdan sonra) əmcəkləri dezinfeksiyaedici məhlullara salmaq lazımdır. Çünki sağımdan sonra adətən süd çıxarıcı kanalların deşiyi təxminən 30dəqiqə və daha çox açıq qalır, yəni bağlanmır. Elə bu zaman da yelinin parenximasına mikrobların daxil olması imkanı yaranır. Bu baxımdan heyvanlar sağıldıqdan sonra əmcəklərin və yelinin sanitar işlənməsi məqsədəuyğundur.

Yelinin əmcəklərini dezinfeksiya etmək məqsədi bir çox ölkələrdə əmcəklər dezinfeksiya edici məhlul olan butulka və stəkanlara (fincanlara) salınır və ani olaraq (10-15 saniyyə müddətində) orada saxlanir

Bu üsuldan istifadə edərək Y.Velleste və K.Metsanurk (1982) 0,2% estosterila və astosterila -2 ilə əmcəkləri dezinfeksiya etmişlər və heyvanlarda mastit xəstəlikləri 70-90% azalmışdr.

Bolqar tədqiqatçıları 10% dodesil preparatının bakterisid təsirni (qızılı stafilokokklara, streptokokkların $B_1$, E, P və C qruplaarına təsiri) öyrənərkən müəyyən etmişlər ki, 3 ay müddətində yelinin müalicə edərkən onlardan 68,3% -i sağalmış, lakin nəzarət qrupundakı heyvanlarda 52,9% artmışdır.

Bu istiqamətdə Amrika Birləşmiş Ştatlarında və İngiltərədə də tədqiqatlar aparılmış və müsbət nəticə əldə edilmişdir.

Bizim 1985-1990-cı illərdə apardığımız elmi tədqiqatların nəticələri göstərir ki, əmcəklərin 0,25% hipoxlorit natrium məhlulu ilə dezinfeksiya etdikdə ( sağımdan sonra) əmcəklərin mikroblarla çirklənməsi nəzarət qruplarındakı heyvanlara nisbətən

3-5 dəfə azalmışdır. Təcrübə 75 baş inək üzərində aparılmışdır. Bunun üçün inəklər 2 qrupa bölünmüşdür 1 qrup təcrübə - 50 baş və 2 qrup nəzarət – 25 baş. Həmin təcrübələr camışlar üzərində təkrar olunmuş və demək olar ki, anoloji nəticə alınmışdır.




*Əmcəkləri dezinfeksiya edən cihaz*

müayinə olunan inəklərin və camışların əmcəklərini dezinfeksiya etmək üçün yüksək səmərəliliyə malik plastmas cihazdan istifadə olunmuşdur. Biz laboratoriya şəraitində sintetik maddə olan plastmas materialdan əmcəkləri dezinfeksiya etmək üçün cihaz hazırladıq. Həmin cihaz 1 ədəd təcrübə aparmaq məqsədilə hazırlandı və inək və camışlar üzərində sınaqdan keçirildi. Həmin cihaz aşağıda göstərilən parametrlərdə hazırlanmışdır.

Plastmas dezinfeksiyaedici cihazın ümumi görnüşü və ayrı-ayrı hissələri aşağıda verilir. Bu cihaz 2 hissədən ibarətdir, I. stakan (fincan) hissəsi, 1) hündürlüyü 140 mm, 2) diametri 50 mm 3) stəkanın dibində 4 ədəd deşiyi var, 4) boğazı (boyunu) ikinci hissəyə yiv ilə birləşir. II. – dezinfeksiyaedici məhlul üçün butulka (fincan) hündürlüyü – 150 mm 3) həcmi (tutumu) 300 ml.


52
Φ 50
140
6
10
1
10
240
Φ10
1
M1:1


ϕ23
ϕ20
M 1:1
R5
R3.
13
95
140
5
ϕ45
ϕ50

Qeyd etmək lazimdır ki, bu cihaz plastik polimer materialdan hazirlanmaqla, möhkəm və 100°-ə istiliyə davamlıdır.

Butulkada (fincanda) olan dezinfeksiyaedici məhlul stəkana ötürmək üçün hər iki hissəni birləşdirən boru vardır ki, onun da uzunluğu 120 mm və diametri isə 10mm-dir

Ümumiyyətlə, cihazdan istifadə etmək üçün, ilk mövbədə əmcəkləri sanitar işləmək məqsədilə səmərli dezinfeksiyaedici maddəni seçməli və onu cihaza doldurmaq lazımdır. Bundan sonra camış və inəklərin əmcəkləri və yelinləri təmizlənərək dəsmalla silinir. Sonrakı mərhələdə isə əmcəklər cihazın stəkanına salınaraq 10-15 saniyə saxlanır. Dezinfeksiyaedici məhlul sanitar işləmədən sonra butulkaya qayıdır. Bu proses əllə butulkanın gövdəsini sıxıb buraxmaqla idarə olunur. Lakin əmcəklərin dezinfeksiyası üçün cihazın bir dəfə doldurulmuş 300 ml ilə 40-50 baş inəyin və camışın əmcəklərini sanitar işləmədən keçirmək mümükündür. Buradan görünür ki, bu cihazla əmcəklərin sanitar işlənməsi nə qədər iqtisadi cəhətdən sərfəli və praktiki cəhətdən əlverişlidir.

Qeyd etmək lazımdır ki, göstərilən cihazla inək və camışların əmcəklərini hər sağımdan sonra müvəffəqiyətlə sanitar işlənilməsi vəqsədə uyğundur. Nəticədə heyvanlarda (inək və camışlarda) mastit xəstəliklərinin əmələ gəlməsinin müəyyən dərəcədə qarşısı alınar və südün sanitariya keyfiyyəti də yüksələr.